LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

Şərq Tərəfdaşlığında Vətəndaş Cəmiyyətinin Dayanıqlığının Artırılması (ERICS-EaP)



İcra müddəti: 01.03.2024 - 01.03.2027

ŞT ölkələri:

Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna

Aİ-nin maliyyə yardımı: € 1 500 000

Ümumi büdcə: € 1 745 213

İcraçı təşkilat(lar):

Transatlantic Foundation

Internet səhifəsi: gmfus.org/enhancing-resilience-civil-society-eastern-partnership-erics-eap

Layihənin təsviri:

Təklif olunan fəaliyyət “Şərq Tərəfdaşlığında Vətəndaş Cəmiyyətinin Dayanıqlığının Artırılması” (ERICS-EaP) adlanır. Layihənin məqsədi Şərq Tərəfdaşlığının altı ölkəsində vətəndaş cəmiyyəti təşkilatlarının (VCT-lər) demokratik idarəçilik və islahat proseslərindəki rolunu gücləndirməkdən ibarətdir. Bu hədəfə nail olmaq üçün ERICS-EaP bir sıra kompleks tədbirləri nəzərdə tutur. Bura təşkilati potensialın artırılması və spesifik risklərin idarə edilməsi ilə yanaşı, davamlılıq, şəbəkələşmə və səyahət qrantları formasında birbaşa maliyyələşdirmə daxildir. Layihə vətəndaş cəmiyyəti təşkilatlarını dayanıqlı demokratik tərəflər kimi formalaşdırmaq üçün onları zəruri bacarıqlarla, təşkilati və maliyyə resursları ilə, habelə regional şəbəkələrlə təmin edir. Azərbaycan, Ermənistan, Belarus, Gürcüstan, Moldova və Ukraynada icra edilən bu fəaliyyət çərçivəsində təxminən 500 VCT və onların işçi heyətinə birbaşa dəstək göstəriləcək. Bu proses əsasən üçüncü tərəflərə maliyyə dəstəyinin göstərilməsi vasitəsilə reallaşdırılacaq ki, bu da ERICS-EaP layihəsinin ümumi büdcəsinin 68,5 faizini təşkil edir.

Gözlənilən nəticələr:

- Regionda vətəndaş cəmiyyətinin maliyyə və resurs bazasının təkmilləşdirilməsi
- Əhatə dairəsinin genişləndirilməsi, təsir gücü, tanınma səviyyəsi, hesabatlılıq və idarəetmənin təkmilləşdirilməsi məqsədilə regiondakı vətəndaş cəmiyyətinin əsas seqmentləri üçün hədəfli potensialın gücləndirilməsi tədbirlərinin təşkili

Vətəndaş cəmiyyətinin vətəndaşlar, icmalar və benefisiar qrupları ilə səmərəli inteqrasiyasının təmin edilməsi və onların dövlət idarəçiliyinin bütün səviyyələri ilə əlaqələndirilməsi

Vətəndaş cəmiyyəti platformaları və şəbəkələri vasitəsilə regional və beynəlxalq əməkdaşlığın və təcrübə mübadiləsinin gücləndirilməsi